525-ci qəzet.- 2023.- 4 iyul. S. 13.

# Mərhum şair Alim Məhərrəmlinin yaradıcılığının yeni təqdimatı




İstedadlı şair, publisist və tərcüməçi mərhum Alim Məhərrəmlinin yaradıcılığının əsas komponentlərini ehtiva edən yeni kitabı çap olunub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) mətbəəsində nəfis tərtibatda işıq üzü görən "Hardasan, evi tikilmiş..." adlı kitabda nakam şairin şeirlərindən, tərcümələrindən ibarət yaradıcılıq məhsulları toplanılıb. Şairin özü kimi qəribə taleli bu kitab Xalq şairi Musa Yaqubun onun haqqında zamanında audiovizual şəkildə ifadə etdiyi, şərti adı "Kədərli xatirələrdəki Alim" şəklində xarakterizə olunan fikirləri ilə açılır. Kitabın ikinci ön sözü Alimin ən yaxın dostu, dünyamızdakı son gününə qədər onun qayğısını çəkən Məhəmmədhaqqı Ağayevin "Dərviş ruhlu Alim rahatlığını tənhalıqda tapırdı" yazısı ilə davam edir.

Jurnalist-publisist Nəzirməmməd Zöhrablının redaktorluğu və bədii tərtibatı ilə işıq üzü görən "Hardasan, evi tikilmiş..." kitabı "Kimim var Allahdan özgə!..", "Vətən harayı" və "Sətirlərdə donan sevgi..." adlı üç hissədə verilən şeirlərdən, Alim Məhərrəmlinin müxtəlif tərcümələrindən, nakam istedadlı şairimizin özü, təkrarsız yaradıcılığı haqqında düşüncə adamlarının, həmkarlarının qələmə aldıqları, söylədikləri dəyərli fikirlərdən ibarət "Dünyamızdan Alim keçdi..." adlı xüsusi bölümdən və digər hissələrdən ibarətdir.

"Hardasan, evi tikilmiş..."in tərtibatçısı Məhəmmədhaqqı Ağayev, üz cildinin rəssamı Niyal Abbasquluzadə, korrektoru Firdovsi Quliyev, dizayneri Nicat Qasımovdur.

Bu, Alim Məhərrəmlinin ikinci kitabıdır. Şairin "...Səni də öyrətdim ayrılıqlara" adlı ilk şeirlər kitabı özünün sağlığında - 2000-ci ildə çapdan çıxmışdı.